**UOT 94 (479.24)**

# AZƏRBAYCAN ƏDLİYYƏSİNİN YARANMASI TARİXİNDƏN (1918-1920-ci illər)

**R.Ə.RZAYEV**
***Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi***

*Məqalədə zəngin faktiki material, əsasən də arxiv sənədləri əsasında Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ədliyyə orqanlarının yaranması tarixi araşdırılır. Bununla yanaşı, Azərbaycanda 1918-ci ilə qədər mövcud olan məhkəmə sistemi və bu sahədə mövcud olan problemlər xarakterizə olunur. Burada həmçinin Azərbaycan Ədliyyə Nazirliyinin həyata keçirdiyi ilk tədbirlər, 1919-cu ilin martında Məhkəmə Palatasının təsis və ilk tədbirləri də öyrənilir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ədliyyə sistemində mövcud olan çətinliklər və problemlər də önə çəkilir.*

**Açar sözlər**: Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyi, Məhkəmə Palatası, məhkəmə sistemi, problemlər

1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi Qafqazın müstəqilliyini və Azərbaycan, Gürcüstan və Ermənistandan ibarət Zaqafqaziya Federativ Respublikasının yarandığını elan etdi. Lakin hərb və sülh siyasətinə baxışda Zaqafqaziya müstəqil respublikasını meydana gətirən və onu idarə edən millətlər arasında ciddi fikir ayrılığı olduğu və belə bir vəziyyətdə şüurlu bir hökumət təşkil edərək, bütün Zaqafqaziya adından danışmağa imkan qalmadığı üçün Zaqafqaziya Seymi öz səlahiyyətlərini bitmiş elan etdi.

Bununla əlaqədar, 1918-ci il mayın 28-də Zaqafqaziya Seyminin azərbaycanlı deputatları Azərbaycan Milli Şurasını yaratdılar. Elə həmin tarixdə Tiflis şəhərində Fətəli Xan Xoyskinin başçılığı ilə təşkil olunmuş Azərbaycan Xalq cümhuriyyəti hökumətində ilk ədliyyə naziri vəzifəsinə Xəlil bəy Xasməmmədov təyin edildi. Onlar Zaqafqaziya Federativ Respublikasının tərkibindən çıxaraq, İstiqlal Bəyannaməsini qəbul etdilər və mayın 30-da müstəqil Azərbaycan Xalq cümhuriyyətinin yaranması barədə dünyanın bütün əsas dövlətlərinin xarici işlər naziklikləri̇nə məlumat verdilər.

Bu dövrdə Azərbaycanda məhkəmə sistemi dağınıq, pərakəndə və iflic vəziyyətində idi. Şəhər və qəzaların, demək olar ki, üçdəiki hissəsində müstəntiq və sylh hakimləri yox idi, bəzi yerlərdə isə məhkəmə idarələri öz fəaliyyətlərini tamamilə dayandırmışdılar. Gəncə şəhərinin Dairə Məhkəməsi öz

mövcudluğunu birtəhər qoruya bilsə də, faktiki olaraq işləmirdi. Qəzalardakı bir çox sylh hakimləri, magistrantlar və prokurorluq əməkdaşları respublikanı tərk etmiş, binalar isə talan edilmiş, dağıdılmış və yandırılmışdı [1]. İstintaq sahəsində də eyni səbəbdən oxşar vəziyyət yaranmışdı. Yalnız bəzi yerlərdə müstəntiqlər öz vəzifələrində qalmışdılar, lakin onlar yaranmış vəziyyətlə əlaqədar öz vəzifələrini yerinə yetirmək iqtidarında deyildilər.

Nazirlik öz işinə sülh şöbələrinin və istintaq sahələrinin bərpası ilə başladı. Bu işdə çox böyük çətinliklər qarşıya çıxdı – barışıq hakimləri və müstəntiq kadrları kifayət qədər hazırlığa malik deyildilər və buna görə də, tutduqları vəzifələrə uyğun gəlmirdilər. Belə bir vəziyyətdə məhkəmə fəaliyyətinin bərpası üçün qalan bütün şəxsi heyətdən istifadə edildi, lakin bu da kifayət etmədi. Nazirliyin rəhbərliyi məcburiyyət üzündən syhl hakimləri və müstəntiq vəzifələrinə (əsasən qəzalarda) hüquqi təhsili olmayan, lakin bununla yanaşı öz əvvəlki fəaliyyətinə görə bu sahədə bir qədər təcrübəsi və biliyi olan şəxsləri təyin etməyə başladı. Bunlar barışdırıcı şöbələrin və məhkəmə icraçısının katibləri və katib köməkçiləri, istintaq tərcüməçiləri, bir sözlə, məhkəmə işinə heç olmasa müəyyən qədər yaxınlığı olan şəxslər idilər. Bununla əlaqədar olaraq təhsil senzi və ən minimal tələblərin qoyulması çox kəskin surətdə aşağı düşürdü. Qəzalarda hakim və müstəntiq vəzifələrinə razılıq verən olmurdu. Vəziyyətin ağırlığı, hakimiyyətin təcrübəsizliyi, məhkəmə işçilərinin aşağı maddi təminatı, hökm sürən bahalıq, barışıq şöbələrinin və istintaq sahələrinin binalarının olmaması bir çoxlarını, hətta yerli sakinləri də bu vəzifələri tutmaqdan çəkindirirdi. Ən böyük problemlərdən biri adamları əyalətlərə işə göndərmək idi. Lakin bütün çətinliklərə baxmayaraq məhkəmə aparatı tədricən fəaliyyət göstərməyə başlamışdı. Belə ki, barışıq hakimi və müstəntiq vəzifələrinin əksəriyyəti tutulmuş, binalar qaydaya salınmış və imkan daxilində zəruri avadanlıqla təchiz edilmişdi.

Ədliyyə Nazirliyi məhz belə bir ağır şəraitdə fəaliyyətə başlamışdı.

16 iyun 1918-ci ildə Azərbaycan hökuməti Tiflisdən Gəncə şəhərinə köçərək, öz fəaliyyətini davam etdirdi. Bu zaman Azərbaycan sahibkarlarının və mülkədarlarının müəyyən dairələri üçün Fətəli Xan Xoyski hökuməti həddindən artıq solçu və inqilabi təsir bağışlayırdı. Məhz bu dairələr Milli Şuraya və Nazirlər Şurasına qarşı fəal kampaniyaya başladılar və Gəncədə yerləşən Türkiyə Hərbi missiyasının başçısı Nuru paşanı da buna cəlb etdilər. Nəticədə Milli Şura buraxıldı və yeni hökumət təşkil edildi. Yeni hökumətdə Ədliyyə naziri vəzifəsini də Baş nazir Fətəli Xan Xoyski öz üzərinə götürdü.

Nazirlik əvvəllər öz fəaliyyətini təkbaşına həyata keçirirdi. Lakin «Hər bir nazirlikdə nazirin yoldaşı (nazir müavini) vəzifəsinin və dəftərxananın təsis edilməsi haqqında» Hökumətin 26 və 30 iyun 1918-ci il tarixli qərarından [2,c.59] sonra Nazirliyin mərkəzi orqanı nazirdən, nazirin müavinindən – Tiflis Məhkəmə Palatasının sabiq üzvü Teymur bəy Makinskidən, nazirin katibindən – yenə də Tiflis Məhkəmə Palatasının sabiq andlı müvəkkili Mixail Aleksandroviç Klankdan, kargüzar Əliəşrəf Vəlixanovdan və makinaçı Natalya Serge-

yevna Kamenevadan ibarət oldu.

Gəncə şəhərində öz fəaliyyətinin başlanğıcında nazirliyin mərkəzi orqanı çox çətin vəziyyətə düşdü. Azərbaycan hökumətinin 1918-ci il 23 iyun tarixli qərarında deyilirdi ki, idarəetmənin və məhkəmənin bütün sahələri üzrə indiyə qədər qüvvədə olan bütün qanunlar Azərbaycan Xalq cumhuriyyəti hökuməti tərəfindən qanunla müəyyən edilmiş qaydada ləğv edilməyincə və ya dəyişdirilməyincə qüvvədə qalacaqlar! Qeyd etmək lazımdır ki, həmin vaxtda Nazirliyin ixtiyarında heç bir qanun yox idi. Onları hökumət idarələrində axtarmaq lazım gəlir, hətta kömək üçün xüsusi şəxslərə müraciət edilirdi. Müxtəlif məsələlərə dair rəy verilməsi barədə başqa nazirliklərdən daxil olan sorğular ilə əlaqədar zəruri qanunların və hüquqi vəsaitlərinin olmaması da Nazirliyi çətin vəziyyətdə qoyurdu.

Gəncə Dairə Məhkəməsinin fəaliyyəti nisbətən tez bir zamanda qaydaya salındı. Prokurorluğun magistraturasında, habelə dəftərxanada qulluqçuların əksəriyyəti öz yerlərində idilər və yalnız boş yerləri tutmaq lazım gəlmişdi.

Sentyabrın 15-də Bakı şəhəri Azərbaycan Türk qoşunları tərəfindən azad edildikdən sonra, ayın 26-da Ədliyyə Nazirliyi buraya köçdü və «Metropol» mehmanxanasının (indiki Nizami adına Ədəbiyyat muzeyinin binası) iki nömrəsində yerləşərək, (sonra nazirlik Persidskiy küçəsi, 6 nömrəli evdə (indiki Səadət sarayının binası) yerləşmişdir) öz fəaliyyətini bərpa etdi.

Bütün respublikada olduğu kimi Bakıda da məhkəmə strukturlarının hamısı, demək olar ki, viran qalmışdı. Bakı Kommunasının, sonra isə Sentrokaspi Diktaturasının təsərrüfatsızlığı və səbatsızlığı bütün ədalət mühakiməsi işlərini tam xaos vəziyyətinə gətirib çıxarmışdı. Bütün məhkəmə və prokurorluq işçiləri bolşeviklərlə birlikdə işləməkdən imtina etdiklərinə görə məhkəmənin prokuror nəzarəti tamamilə ləğv edilmiş, vəzifəli şəxsləri işdən qovulmuşdular. Məhkəmənin adı dəyişdirilib xalq məhkəməsi qoyulmuş və onun islahatı barədə qərar qəbul olunmuşdu. Lakin bu qərar kağız üzərində qalmış, məhkəmə «islah edilmiş» şəkildə işə başlamağa macal tapmamışdı. Bütün barışıq şöbələri və sahələri ləğv edilmiş, onların əvəzində «xalq» məhkəmələri yaradılmış, hakimlərin bir hissəsi tamamilə səriştəsiz adamlarla əvəz edilmişdi.

Bakı Dairə Məhkəməsinin və onun yanında prokuror nəzarətinin təşkili nisbətən asan iş idi, çünki az istisna ilə magistraturanın və prokurorluğun qulluqçuları hələ də Bakıda idilər, qalanları isə Azərbaycan Hökumətinin Bakıya gəlməsindən dərhal sonra qayıtmağa başladılar.

Barışıq təsisatlarının və istintaq hissəsinin bərpası isə xeyli çətin idi. Xüsusilə də Bakı şəhərinin qəzalarında və quberniyalarında məhkəmə fəaliyyəti tamamilə dayandırılmış, keçmiş məhkəmə işçilərindən, demək olar ki, heç kim qalmamışdı. Gəncə şəhərində olduğu kimi Bakıda da Ədliyyə Nazirliyi eyni çətinliklərlə rastlaşmışdı – hakim və müstəntiq vəzifələrini tutmaq üçün kifayət qədər hazırlıqlı şəxslər yox idi və onlar təhlükəsizliyin və maddi həyat şəraitinin təmin edilmədiyi əyalətlərə getmək istəmirdilər. Bakı Məhkəməsi dairələrinin, qəza barışıq şöbələrinin demək olar ki, bütün binaları Şaum-

yanın bolşevik əlaltıları tərəfindən dağıdılmış, onların əmlakı talan və məhv edilmişdi.

Eyni acınacaqlı vəziyyət Şamaxı şəhərində də müşahidə edilirdi. Barışıq şöbəsinin binası yandırılmışdı. Qəzalarda məhkəmələrin və müstəntiqlərin təyin edilməsi ilə bərabər, barışıq şöbələri bərpa və ən zəruri avadanlıqla təchiz olunmalı idi.

Ədliyyə Nazirliyinin ilk tədbirlərindən biri respublikada qayda-qanunun bərpası ilə əlaqədar müvafiq qanunların qəbul edilməsi oldu. Azərbaycanla bağlı beynəlxalq vəziyyət, görünməmiş daxili anarxiya və ölkənin düşdüyü fövqəladə halla əlaqədar Azərbaycanın bütün ərazilərində hərbi vəziyyətin tətbiq edilməsi haqqında hökumətin 1918-ci il iyunun 19-da verilmiş qərarına əlavə olaraq, avqustun 12-də müvəqqəti tədbir kimi ölüm cəzası tətbiq edildi [3].

Bakı şəhərində qanuni hökumətin qurulması və qayda-qanunun bərpası sayəsində hökumətin 1918-ci il 1 oktyabr tarixli qərarı ilə məhkəmələrin və xüsusi funksiyalı komissiyaların əvvəlki hökumət tərəfindən təsis edilmiş bütün adları ləğv olundu. Tabeliyində olan idarələrlə birlikdə Bakı Dairə Məhkəməsinin fəaliyyəti, habelə prokurorluğun fəaliyyəti bərpa edildi, dəftərxana qulluqçuları istisna olmaqla, ləğv edilmiş məhkəmələrin və komissiyaların bütün qulluqçuları işdən azad edildilər [4].

1918-ci ilin noyabrınadək respublikada Bakı və Gəncə dairə məhkəmələrinin, habelə bu məhkəmələrin əhatə etdiyi dairələrdə barışdırıcı idarələrin fəaliyyəti bərpa edildi [5].

Respublikada hüquq qaydalarının və qanunçuluğun yaradılması üçün yuxarıda göstərilən məhkəmə idarələrinin fəaliyyətə başlamasından sonra Azərbaycan Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü məsələsi gündəliyə gətirildi. Bununla əlaqədar olaraq, 1918-ci il noyabrın 14-də Azərbaycan Respublikasının Hökuməti tərəfindən Azərbaycan Məhkəmə Palatası haqqında Ədliyyə Nazirliyinin təqdim etdiyi Əsasnamə təsdiq edildi [6].

Bu sənədə əsasən belə bir tərkibdə palata yaradıldı: böyük sədr; Departamentin sədri; Palatanın prokuroru və onun iki nəfər müavini. Hökumətin 1919-cu il 28 fevral və 10 may tarixli qərarları ilə andlı müvəkkil Ələkbər bəy Xasməmmədov Palatanın böyük sədri, Simferopol Dairə Məhkəməsinin sabiq prokuroru Olgerd Kriçinski isə Palatanın prokuroru təyin edilmişdilər. Sonuncunun təyin edilməsinə qədər bu vəzifəni prokurorun müavini N.Q.Tkaçov icra etmişdi. Buna qədər o, Gəncə Dairə Məhkəməsinin prokuroru işləmişdi [7, 61-62].

1919-cu il martın 16-da Bakı Dairə Məhkəməsinin binasında Azərbaycan Məhkəmə Palatasının rəsmi açılışı oldu (8). Həmin gündən etibarən burada Bakı və Gəncə dairə məhkəmələrinin Tiflis Məhkəmə Palatasından tələb edilib alınmış işlərə baxılmağa başlandı.

Vəsait çatışmazlığı və imkansızlıq şəraitində Ədliyyə Nazirliyi öz diqqətini vakant ştatların komplektləşdirilməsinə yönəltmişdi. Bununla əlaqədar

olaraq Ədliyyə nazirinin müavini Teymur bəy Makinski «Ədliyyə Nazirliyi haqqında Əsasnamə»ni və «Ədliyyə Nazirliyi dəftərxanası ştatının təsdiq edilməsi haqqında qanun layihəsinə izahat məktubu»nu hökumətin təsdiqinə təqdim etmişdi [9].

Ədliyyə Nazirliyinin yaranması tarixində olduqca böyük və mühüm məqam Azərbaycan Hökumətinin 1918-ci il 22 noyabr tarixli qərarının qəbul edilməsi oldu.

Həmin gün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsi və ştat cədvəli təsdiq edildi. Bununla da nazirliyin işlək bir orqana çevrilməsi üçün struktur bölmələrinin fəaliyyəti ilk dəfə rəsmi qaydada müəyyən olundu. Əsasnamənin birinci bəndində göstərilirdi ki, Ədliyyə Nazirliyi: 1)Ədliyyə Naziri, 2)nazirin müavini, 3)nazirliyin yanında məsləhətxana və 4)nazirliyin dəftərxanasından ibarətdir. Bu qərara əsasən dəftərxananın kargüzarlarının və dəftərxana qulluqçularının sayı xeyli artırıldı.

Azərbaycan Hökumətinin 3 dekabr tarixli qərarı ilə Tiflis Məhkəmə Palatasının sabiq prokuroru J.M.Kiselevski dəftərxananın direktoru təyin edildi. Kargüzar vəzifələrini həmin Palatanın sabiq üzvləri M.A.Baffali və s.F.Orlov tutdular. Nazirliyin ştatları tədricən artırılırdı. Hökumətin 1919-cu il 11 avqust və 1 sentyabr tarixli qərarları ilə qulluqçuların sayı 1920-ci ilin əvvəlinə olan məlumata görə 35 nəfərə çatmışdı [10].

1918-ci il oktyabrın sonunda beynəlxalq aləmdə də olduqca ağır ictimai-siyasi vəziyyət və kəskin dönüş yaranmışdı. Azərbaycanın ictimai-siyasi həyatında mühüm dostluq və qardaşlıq rolu olan Türkiyə Birinci Dünya müharibəsində məğlub tərəf kimi ağır şərtlərlə oktyabrın 30-da Böyük Britaniya ilə Mudros sülhü imzalamağa məcbur oldu.

Bu sülhün şərtlərinə əsasən, Türkiyə öz qoşunlarını Zaqafqaziyadan çıxartdı və Azərbaycanın Böyük Britaniyanın nüfuz dairəsinə daxil olduğu elan edildi. Belə bir son dərəcə mürəkkəb şəraitdə 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamenti öz işinə başladı və bu ərəfədə əvvəlki hökumətin öz səlahiyyətlərini dayandırdığını elan edən Fətəli Xan Xoyskiyə Azərbaycan Respublikasının yeni koalisiyalı hökumətinin təşkilini tapşırdı. Yeni hökumət təşkil edildikdən sonra 1918-ci il dekabrın 26-da Teymur bəy Makinski yeni Ədliyyə Naziri təyin edildi.

Həmin vaxt Nazirliyin tabeliyində artıq Azərbaycan Məhkəmə Palatası, Prokuror nəzarəti, İstintaq təsisatları və barışıq şöbələri ilə birlikdə Bakı və Gəncə Dairə məhkəmələri, Gəncə Quberniya İdarə heyəti yanında Yerölçən, Bakı və Gəncə mərz dairələri var idi [11].

Nazirliyin göstərişinə əsasən, mərz dairələrinin fəaliyyəti orijinal planların tərtib edilməsindən və onların icrasının yoxlanılmasından, habelə aqrar islahatı üçün mərz sahiblərinin adbaad siyahılarının tərtib edilməsindən ibarət idi [12, 66].

Nazirliyin həyata keçirdiyi ilk tədbirlərdən – barışıq hakimləri köməkçilərinin, istintaq və məhkəmə idarəsi üzrə vəzifələrə namizəd sahələrinə

müdirlik edən şəxslərin yol xərclərinin ödənilməsi haqqında qaydanın 1918-ci il noyabrın 18-də hökumət tərəfindən təsdiq edilməsini, habelə həm ticarət, həm də, ümumiyyətlə, işlərin idarə edilməsi üzrə etibarnamələrin müddətinin uzadılması haqqında Qanunun 1919-cu il yanvarın 19-da Parlament tərəfindən qəbul olunmasını göstərmək olar [13, 61].

Müxtəlif idarələrdə cinayət və sui-istifadə hallarının təhqiqatı üçün Teymur bəy Makinski Azərbaycan Respublikası Hökuməti yanında Xüsusi Təftiş-İstintaq Komissiyasının təşkili edilməsi haqqında Əsasnaməni Azərbaycan Hökumətinin müzakirəsinə təqdim etmişdi. 1919-cu il fevralın 14-də Azərbaycan Respublikası Hökuməti Nazirlər Şurası sədrinin bu məsələ barədə məruzəsini dinləyərək, həmin qərarı bəyənmiş və redaktə olunması üçün onun hüquq məsləhətçisinə verilməsini tapşırmışdı [14].

Əsasnamə tam hazır olduqdan sonra Komissiyanın təsis edilməsi barədə qanun layihəsi 1919-cu il mayın 21-də parlamentin iclasına çıxarıldı və həmin il iyulun 27-də qəbul edildi. Hələ qanunun qəbul edilməsindən xeyli əvvəl komissiya görüləsi işlərin çoxluğunu və vacibliyini nəzərə alaraq Azərbaycan Məhkəmə Palatasının üzvü N.K.Patseviçin sədrliyi ilə işə başlamış, Ərzaq, Ticarət, Sənaye nazirliklərinin mərkəzi idarələrinin və Bakı xəfiyyə polisinin təftişini keçirmişdi. Bu yoxlama nəticəsində bir sıra vəzifəli şəxslər cinayət məsuliyyətinə cəlb edilmişdilər.

1919-cu ilin martında Fətəli Xan Xoyski hökuməti istefa verdi. Nazirlər Şurasını formalaşdırmaq hüququ yeni Baş nazir Nəsib bəy Yusifbəyova tapşırıldı. O, isə aprelin 14-də Aslan bəy Səfikürdskini ədliyyə naziri təyin etdi. Sabiq nazir Teymur bəy Makinski xaricə xidməti ezamiyyətə göndərildi.

İyulun 1-dən isə öz arzusu ilə nazirin yoldaşı (müavini) vəzifəsindən Azərbaycan Respublikası Hərbi Məhkəməsinin sədri vəzifəsinə keçirildi [15]. Aslan bəy Səfikürdski ilk gündən öz fəaliyyətinin başlıca istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirdi: 1)bütün xalq üçün onun hüquqlarının, rifahının və təhlükəsizliyinin həqiqi qorunmasını təmin edən ədalət mühakiməsi işinin ölkədə düzgün qurulması; 2) ictimaiyyəti təmsil edənlərin ədalət mühakiməsinin aparılmasında iştiraka cəlb edilməsi və 3) məhkəmələrdə seçki sisteminin qurulması [16].

Nazirlik yanında hələ 1919-cu il fevralın 11-də yaradılmış məhkəmə şöbəsinə dair qanun layihələrinin hazırlanması üzrə komissiyanın işinə də diqqət yetirildi. Çünki həmin Komissiya qənaətbəxş fəaliyyət göstərmirdi. Onun dörd yarımkomissiyasından yalnız biri – «cinayəi hüququ və prosesi sahəsində bəzi qanunların müddəalarına yenidən baxılması haqqında» yarımkomissiyası bir neçə dəfə yığışsa da, bütövlükdə iş ləng gedirdi. Ona görə də Komissiyaya yenidən seçkilər keçirildi, onun tərkibinə Azərbaycan Məhkəmə Palatısının prokuroru Olgert Kriçinski də daxil edildi. O, 1919-cu il iyunun 9-dan nazirin yoldaşı vəzifəsini icra etmiş, iyulun 7-dən isə hökumətin qərarı ilə ədliyyə nazirinin yoldaşı vəziyəsinə təyin edilmişdi [17]. Aslan bəy Səfikürdski yarımkomissiyalara həftədə ən azı ikidəfə iclas keçirməyi, ayda iki dəfə isə öz

fəaliyyəti haqqında hesabat təqdim etməyi tapşırdı. Komissiyanın işində iştirak etmək üçün görkəmli məhkəmə xadimləri ilə yanaşı andlı müvəkkillər V.Q.Qadaseviç, D.İ.Zeydler, Y.N.Smirnov və başqalarının simasında yerli vəkillərin nümayəndələri də cəlb edilmişdilər. Əvvəllər seçilmiş dörd yarımkomissiyaya beşincisi də əlavə edildi. Nəticədə, yarımkomissiyalar aşağıdakı kimi bölündülər: 1) «Ali Məhkəmənin təsis edilməsi haqqında» - N.K.Paseviçin sədrliyi ilə; 2) «Ədalət mühakiməsinin aparılmasına ictimaiyyətin nümayəndələrinin cəlb edilməsi haqqında» - Tiflis Dairə Məhkəməsinin sabiq sədri N.A.Tolpiqonun sədrliyi ilə; 3) «Yerli məhkəmə haqqında» - yenə də onun sədrliyi ilə; 4) «Mülki hüquq və proses sahəsində bəzi qanun müddəalarına yenidən baxılması haqqında» - Bakı Dairə Məhkəməsinin sədri vəzifəsini icra edən B.V.Perçixinin sədrliyi ilə və 5)yeni yaradılmış «cinayət hüququ və prosesi sahəsində bəzi qanunların müddəalarına yenidən baxılması haqqında» - Azərbaycan Məhkəmə Palatasının prokuroru O.Kriçinskinin sədrliyi ilə.

Sırf idarə xarakterli məsələlərlə yanaşı, Nazirlikdə mühüm ictimai-dövlət əhəmiyyəti kəsb edən müxtəlif qanun layihələri hazırlanır və məsələlər həll edilirdi. O cümlədən, hökumətin 1919-cu il 14 iyul tarixli iclasında Ədliyyə Nazirliyinin Azərbaycan vətəndaşlığı haqqında qəbul edilən qanun layihəsi 1919-cu il avqustun 11-də Azərbaycan Parlamentinin iclasında təsdiq edildi [18].

Bununla yanaşı elə anlar olmuşdur ki, demokratik prinsipləri əsas tutaraq, Nazirlər Şurası Ədliyyə Nazirliyinin rəyi ilə razılaşmamışdır. Belə ki, 1919-cu il mayın 30-da Xüsusi Təftiş-İstintaq Komissiyasının apardığı təhqiqata prokuror nəzarətinin tətbiq edilməsi haqqında Ədliyyə Nazirinin məruzəsini dinləyərək, Azərbaycan Respublikası Hökuməti bu təklifi rədd etməyi qərara almışdır [19].

Həbsxana işinin ədalət mühakiməsinin mənafeyi ilə yaxınlığı nəzərə alınaraq və onun fəaliyyəti qanuniləşdirilərək ədliyyə nazirinin təşəbbüsü üzrə hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tabeliyində olan həbsxana işi Ədliyyə Nazirliyinin tabeliyinə verildi [20].

Bununla əlaqədar olaraq, həbsxana rəisinə bildirilirdi ki, o, dustaqların saxlanılması, həbsxana təsərrüfatı, yarışma, habelə bütün başqa məsələlər barədə, bilavasitə Ədliyyə Nazirliyinin Həbsxana şöbəsinə müraciət etsin [21]. Həbsxana işinin yaxşılaşdırılması yolunda birinci addım təxminən 2000 nəfər dustaq saxlanılan 12 həbsxana binasının sahmana salınması sahəsində tədbirlərin görülməsi, dustaqların ərzaqla və ən zəruri predmetlərlə təchiz edilməsi oldu. Artıq ilin sonunadək Bayıldakı mərkəzi həbsxanada Nazirliyin nəzarəti altında aparılan təmir işləri başa çatdı. Noyabrın 11-dən dustaqlara isti yemək, ½ funt ət, bir funt çörək verməyə başladılar. Dekabrın 20-dən isə dustaqların qaldıqları yerlərə istilik verildi [22]. Həbsxana şöbəsi yaradıldıqdan sonra avqustun 31-də Gəncə Dairə Məhkəməsi prokurorunun muavini L.Q.Knayye həbsxana inspektoru təyin edildi və noyabrın 20-də onun yerinə Xəlil bəy Sultanov təyin edilənə qədər bu vəzifədə işlədi.

1919-cu il dekabrın 20-də dairə məhkəmələrinin sədrlərinə və proku-

rorlarına müraciət edən Ədliyyə Naziri A.Səfikürdski yazırdı: «Ədalət Mühakiməsinin aparılması işi ilə qırılmaz bağlı olan həbsxana işi məhkmə xadimlərinə də yaxın olmaya bilməz və mən hesab edirəm ki, yerli həbsxana həyatından irəli gələn bütün məsələlərin həllində onların yaxından iştirakı tamamilə arzuolunan sayılmaqla, onun düzgün yola daha uğurlu yönəldilməsinə kömək etməlidir» [23].

İlyarımlıq fəaliyyəti ərzində Nazirlikdə 421 təyinat, 28 yerdəyişmə və 176 işdən azadetmə faktı qeydə alınmışdır [24]. Buraya İrəvan Dairə Məhkəməsinin üzvü A.B.Ağababayovun 1919-cu il mayın 14-də Gəncə Dairə Məhkəməsinin sədri və Azərbaycan Məhkəmə Palatasının üzvü Fətəli bəy Axundovun Bakı Dairə Məhkəməsinin sədri vəzifəsinə təyin olunmalarını da əlavə etmək lazımdır.

Nazirliyin aparatında şəxsi heyət sayca kifayət qədər idi. Lakin həbsxana işinin inkişafı və hüquq məsləhəti şöbəsinin yaradılması ilə əlaqədar olaraq ştat vahidlərinin artırılması tələb olunurdu [25]. Məhkəmə idarəsində 1920-ci il yanvarın 1-nə olan vəziyyətə görə, ştat üzrə 861 nəfər qulluqçu var idi, onlardan 192 nəfəri dəftərxana işçisi, 91 nəfəri isə aşağı işçilər idi.

Ancaq işdə əldə olunan müsbət irəliləyişlərlə yanaşı, həll olunası müəyyən məsələlər də qalmışdı. Boş yerlərin tutulması üçün kadrların, birinci növbədə yerli kadrların çatışmaması, habelə qulluqçuların şəxsi heyətinin sayca artırılması və ixtisas hazırlığının yaxşılaşdırılması sahəsində qarşıda duran vəzifələrin həyata keçirilməsinin ağırlığı Nazirliyin fəaliyyətini çətinləşdirmişdi. Bununla əlaqədar olaraq, məhkəmə işinin səviyyəsini yüksəltməkdən ötrü Nazirlik müstəntiq vəzifələrinin tutulması üçün orta təhsilli gəncləri işə dəvət etməyə başlamışdı. Bu adamlara daimi haqq verilməklə onlar Ədliyyə Nazirliyinin hesabında sayılır, istintaq və barışıq şöbələrində vəzifələrin tutulmasına hazırlanmaq üçün məhkəmə orqanları sədrlərinin sərəncamına göndərilirdilər. Burada onlar maddi və prosessual hüquq sahəsində nəzəri bilik əldə edirdilər. Bu proseslərə Azərbaycan Respublikası Məhkəmə Palatasının sədri A.Xasməmmədov və həmin Palatanın prokuroru O.Kriçinski rəhbərlik edirdilər. Qoyulan tələblərə cavab verənlər müvafiq vəzifələrə təyinat alırdılar. Sonralar gənc mütəxəssislərin hazırlanması Bakı Dairə Məhkəməsinin sədri F.Axundova tapşırıldı. 1919-cu ilin iyununda gənc kadrların hazırlanması üçün Məhkəmə Palatası yanında 6 aylıq kurslar açıldı. Seçilmiş 11 nəfər gəncdən 9 nəfəri ştatlı vəzifəyə, təyin edilmiş bir nəfər isə barışıq sahəsinin müdiri vəzifəsinə təyin edilmişdi [26].

1919-cu il dekabrın 22-də Azərbaycan Respublikası Məhkəmə Palatasının sədri tərəfindən Ədliyyə Nazirinə «Müvəqqəti hüquq kurslarının təsis edilməsi haqqında» qanun layihəsi təqdim edilmişdi. Layihədə yazılmışdı: «Orta təhsil məktəblərinin ən azı altı sinfini bitirmiş Azərbaycan vətəndaşlarının hazırlığı üçün Ədliyyə Nazirliyi yanında altı aylıq müvəqqəti pulsuz hüquq kursları təsis edilsin…» [27].

Məhkəmənin əhaliyə daha da yaxınlaşdırılması məqsədi ilə Nazirlik

məhkəmə orqanlarına dövlət dilini – Azərbaycan dilini bilən şəxslərin cəlb edilməsi üçün də tədbirlər həyata keçirdi. Görülmüş tədbirlər nəticəsində məhkəmə idarələrində bütün iclaslar yalnız Azərbaycan dilində aparılırdı. Bununla yanaşı təkcə 1919-cu ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi məhkəmə sübutları, cinayət hissəsi və mülki hissə sahəsində bir sıra tədbirlər də həyata keçirmişdir. Belə ki, məhkəmə sübutu sahəsində: 1)1919-cu il avqustun 18-dən təkcə Azərbaycanda deyil, həm də bütün Zaqafqaziyada istintaq aparatının təşkilini əsaslı surətdə dəyişən «İstintaq işinin quruluşu və gücləndirilməsi haqqında»; 2)sentyabrın 1-də – məhkəmə idarəsi sahəsində xidmət etmək istəyən şəxslərin bu təsisata yolunu asanlaşdıran və həmin şəxslərin xidməti və maddi vəziyyətini yaxşılaşdıran «Məhkəmə İdarəsi sahəsində vəzifələrə namizədlər haqqında»; 3)noyabrın 5-də Rusiya İmperiyasındakı andlı iclasçılar məhkəməsindən ciddi surətdə fərqlənən, yerli şəraitə və Avropada bu məsələyə dair hüquqi fikrin son nailiyyətlərinə uyğun olan müddəalara əsaslanan «Azərbaycanda: andlı iclasçılar məhkəməsinin təsis edilməsi haqqında» qanun layihələri:

cinayət hissəsi sahəsində:

1) mayın 1-də – «Rüşvətə, rüşvətxorluğa və hədələyib tələb etməyə görə cəzaların gücləndirilməsi haqqında»; 2) iyunun 9-da – «Müttəhimlərin, şahidlərin, hal şahidlərinin, məlumatlı şəxslərin, tərcüməçilərin gəlməməsinə görə pul cərimməsinin artırılması haqqında»; 3) iyunun 15-də – «Cinayət işləri üzrə barışıq məhkəmələrinin məhkəmə aidiyyətinin genişləndirilməsi, onların vasitəsilə hakimiyyətin gücləndirilməsi və özgənin əmlakına qarşı cinayət əməlinə görə cəzaların dəyişdirilməsi haqqında»; 4) oktyabrın 23-də – «cinayət işləri üzrə şahidlərin dindirilməsi qaydasında bəzi dəyişikliklər haqqında»; 5) oktyabrın 23-də – «cinayət işləri üzrə məhkəmə xərcləri haqqında qərarlarda bəzi dəyişikliklər barədə»; 6)noyabrın 11-də – «cinayət işləri üzrə axtarış, təhqiqat, ilkin istintaq və məhkəmə baxışına dair üzrə icraat qaydasında bəzi dəyişikliklər haqqında» qanun layihələri:

Mülki hissə üzrə:

1) mayın 26-da – «Məhkəmə ilə əlaqədar, dəftərxana və bildiriş haqlarının və qiymətləndirilməli olmayan iddia üzrə rüsumun yüksəldilməsi haqqında»; 2) iyunun 2-də – «Barışıq məhkəmələrinin məhkəmə aidiyyəti iddiaları qiymətlərinin artırılması haqqında»; 3) iyunun 9-da «Şahidlərin və məlumatlı şəxslərin gəlməməsinə görə pul cərimələrinin artırılması haqqında»; 4) iyulun 19-da – «Nəşrlərin icraatı haqqında»; 5) iyulun 8-də– «həm ticarət, həm də ümumiyyətlə, işlərin idarəsi üzrə etibarnamələrin müddətinin uzadılması haqqında»; 6) sentyabrın 16-da «Ölüm faktının təsdiq edilməsi haqqında»; 7) sentyabrın 23-də – «Mülki işlər üzrə məhkəməyə çağırış qaydasında bəzi dəyişikliklər haqqında»; 8) sentyabrın 23-də – «Mülki İşlər üzrə qərardan şikayət verilməsi qaydasında bəzi dəyişikliklər haqqında»; 9) sentyabrın 29-da «Mülki İşlər üzrə şahidlərin çağırılması qaydasında bəzi dəyişikliklər haqqında»; 10) sentyabrın 29-da «Aktlar üzrə icbari icra qaydasında bəzi dəyişikliklər haq-

qında»; 11) oktyabrın 22-də – «Mülki işlərin məhkəmə aidiyyəti qaydasında bəzi dəyişikliklər haqqında»; 12) oktyabrın 23-də – «Mülki işlər üzrə məhkəməyə çağırılan şahidlərin, məlumatlı adamların və ruhanilərin mükafatlandırılması məbləğinin dəyişdirilməsi haqqında»; 13) oktyabrın 23-də – «Varislərin çağırılması qaydasında bəzi dəyişikliklər haqqında»; 14) oktyabrın 27-də – «İltizam predmetinin saxlanılmaq üçün məhkəməyə verilməsi qaydasında bəzi dəyişikliklər və belə predmetin kütləvi ticarət vasitəsilə satışı haqqında» və 15) noyabrın 9-da – «Xarici dövlətlərin məhkəmə qərarlarının icrası qaydasının dəyişdirilməsi haqqında» qanun layihələri parlamentin müzakirəsinə çıxarılmışdı.

Nazirliyin nəzdində hüquq ədəbiyyatı kitabxanasının təsis edilməsinə də böyük diqqət yetirilmişdir. Hökumətin 1919-cu il 19 iyul tarixli qərarı ilə Nazirliyin hüquq məsləhəti şöbəsi nəzdində kitabxananın təsis edilməsi üçün Ədliyyə Nazirliyinə 50 000 manat pul ayrılmışdır. Qısa müddətdə şərhlərlə qanunlar və hüquq elmləri üzrə əsərlər alınmışdır. Bu kitabxana həm də Bakı şəhərinin bütün məhkəmə təşkilatlarının ehtiyacını ödəyir, kitabların dublikatları isə əyalət məhkəmələrinə və barışıq şöbələrinə göndərilirdi [28]. Təkcə bir il ərzində kitabxana hüquqa dair təxminən 500 nüsxə müxtəlif əsərlər almışdır.

Bununla yanaşı, ilin sonlarına yaxın Azərbaycanda ictimai-siyasi vəziyyət sərt şəkildə kəskinləşdiyindən 1919-cu il sentyabrın 13-də Nazirlər Şurasının sədri N.Yusifbəyov Parlamentə məktubla müraciət etmişdi. Məktubda göstərilirdi ki, koalisiyaya girən partiyalarla hökumətə etimad göstərməyən sosialistlər arasında dərin ixtilaflar aşkara çıxarıldığına görə, o, bundan sonra özünün hökumətin başında qalmasını mümkün saymır [29].

Beləliklə, 1919-cu il dekabrın 22-də parlamentin iclasında hökumətin yeni kabineti təşkil olunaraq təsdiq edildi və Xəlil bəy Xasməmmədov ikinci dəfə Ədliyyə Naziri vəzifəsinə təyin olundu. Bütün Nazirlər Şurasının üzvləri kimi yeni Ədliyyə Naziri də öz işinin ilk günlərindən bolşevik fəaliyyətinin güclənməsini, Azərbaycan Respublikasının ərazi bütövlüyünə daşnak Ermənistanı tərəfindən qəsd edilməsini və s. kimi mürəkkəb siyasi təyin olundu. Bütün Nazirlər Şurasının üzvləri kimi yeni Ədliyyə Naziri də öz işinin ilk günlərindən bolşevik fəaliyyətinin güclənməsini, Azərbaycan Respublikasının ərazi bütövlüyünə daşnak Ermənistanı tərəfindən qəsd edilməsini və s. kimi mürəkkəb siyasi amilləri, habelə müxtəlif partiyalar arasında sərt mübarizəni nəzərə almalı olmuşdur.

Ona görə də, Nazirliyin həyata keçirdiyi ilk tədbirlərdən biri amnistiya haqqında qanun layihəsinin hazırlanması olmuşdur. Sənəddə deyilirdi: «Hüquqa və azadlığa, dövlət qaydalarına əsaslanan, Azərbaycan xalqının həyatında zülm, hakimiyyətsizlik və anarxiya dövrünə son qoyan respublikanın yaranmasından il yarımın keçdiyi günü qeyd etmək üçün və bütün vətəndaşlar üçün yeni həyata və respublikaya xidmətə bərabər yollar açılmasını tələb edən tarixi ədalət naminə 1918-ci il mayın 28-dək törədilmiş bütün cinayət əməllərinə görə ümumi amnistiya elan edilir» [30]. Yanvarın 16-da bu qanun layihəsi parlamentin iclasına çıxarıldı [31].

Öz növbəsində hökumətin qərarı ilə yanvarın 30-da Ədliyyə Nazirliyinə tapşırılmışdır ki, mülki idarə geyim formaları və habelə hökumət üzvləri üçün fərqlənmə nişanları layihəsinin yaradılması üçün idarələrarası komissiya təşkil edilsin [32].

Artıq həmin dövrdə ölkədə ictimai-siyasi vəziyyət son dərəcə kəskinləşmiş, Sovet Rusiyasından siyasi və hərbi dəstək alan bolşeviklər və Azərbaycan Respublikası yarandığı gündən onun müstəqilliyinə və suverenliyinə qənim kəsilmiş digər siyasi, ictimai ünsürlər bütün vasitələrdən istifadə edərək, hakimiyyəti devirməyə çalışırdılar.

Vəziyyətin mürəkkəbliyinə və çətinliyinə baxmayaraq Ədliyyə Naziri başda olmaqla Nazirliyin işçiləri son günə qədər öz xidməti vəzifələrini vicdanla və ləyaqətlə icra etdilər. Nazirliyin son qərarlarından biri isə 1920-ci il martın 23-də təsdiq edilən «Həbsxanalarda dustaqların ərzaqla təmin edilməsi barədə müvəqqəti fərman» oldu [33].

Beləliklə, 1920-ci il aprelin 28-də XI Qızıl Ordu Azərbaycanı işğal edərək, Azərbaycan xalqının və dövlətçiliyinin tarixində müstəsna rolu heç vaxt unudulmayacaq ilk milli və demokratik hakimiyyəti devirdi və burada Sovet hakimiyyətini qurdu.

Elə həmin vaxtdan da Ədliyyə Nazirliyinin fəaliyyəti tarixində yeni mərhələ başlandı.

**ƏDƏBİYYAT**


1. ARDA, f.2,s.2, i.84, v.4
2. Azərbaycan Respublikasının ünvan-təqvimi. Bakı, s.59.
3. ARDA, f.100,s.2, i.7, v.35
4. ARDA, f.200,s.2, i.7, v.51
5. ARDA, f.100,s.2, i.284, v.45
6. ARDA, f.100,s.2, i.7, v.40
7. Azərbaycan Respublikasının ünvan-təqvimi. Bakı, s.61-62.
8. “Azərbaycn” qəzeti, 19 mfrt 1919-cu il
9. ARDA, f.100, s.2, i.292, v.12
10. ARDA, f.100, s.2, i.784, v.116
11. ARDA, f.100, s.2, i.51, v.2 ob
12. Azərbaycan Respublikasının ünvan-təqvimi. Bakı, 1920, v.66
13. Azərbaycan Respublikasının ünvan-təqvimi. Bakı, 1920, v.61
14. ARDA, f.100, s.2,i.65, v.5.
15. ARDA, f.100,s.2, i.7, v.169
16. Ədliyyə nazirliyi üzrə 1919-cu il 16 aprel tarixli əmr.
17. ARDA, f.100,s.2, i.7, v.170
18. ARDA, f.100,s.2, i.7, v.184
19. ARDA, f.100,s.2, i.7, v.146
20. ARDA, f.100,s.2, i.7, v.141
21. ARDA, f.100,s.2, i.5, v.4
22. ARDA, f.100,s.1, i.1, v.46, 46 ob
23. ARDA, f.100,s.1, i.5, v.15
24. Azərbaycan Respublikasının ünvan-təqvimi. Bakı, 1920, s.63
25. ARDA, f.100, s.2, i.784, v.116.

26. ARDA, f.100, s.2, i.78, v.7.
27. ARDA, f.100, s.1, i.91, v.5.
28. ARDA, f.100, s.2, i.784, v.116.
29. “Azərbaycan” 1919, 10 sentyabr, № 192
30. ARDA, f.100, s.2, i.291, v.2
31. ARDA, f.100,s.2, i.301, v.1
32. ARDA, f.100,s.2, i.310, v.1
33. ARDA,f.100,s.2,i.5, v.34.

## ИЗ ИСТОРИИ СОЗДАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЮСТИЦИИ (1918-1920 гг.)

**Р.А.РЗАЕВ**

### РЕЗЮМЕ

В статье на основе богатого фактического материала и, в первую очередь, архивных данных раскрывается история создания органов юстиции Азербайджана в период Азербайджанской Демократической Республики. Дается характеристика существующей в Азербайджане до 1918 года судебной системы и показываются имеющиеся в ней проблемы.

Статья так же исследует первые мероприятия, которые начало проводить Министерство Юстиции Азербайджана после своего создания, а так же создание и первые шаги Судебной Палаты, образованной 16 марта 1919 года.

Здесь вместе с тем повествуется о проблемах и трудностях, которые сопровождали создание органов Юстиции в Азербайджане.

**Ключевые слова:** Азербайджанская Демократическая Республика, Министерство Юстиции, Судебная Палата Азербайджана.

## ABOUT THE HISTORY OF ESTABLISHMENT OF AZERBAIJANI JUDICIARY (1918-1920)

**R.A.RZAYEV**

### SUMMARY

The present article based on factual materials and archival information reveals the history of establishment of judiciary in Azerbaijan in the years of Azerbaijan Democratic Republic.

The author characterizes the existing Azerbaijan judiciary system in Azerbaijan before 1918 and touches upon the existing problems.

This article also investigates the first measures taken by the Ministry of Justice in Azerbaijan after its creation, and first steps of Trial Chamber established on 16 march, 1919.

**Key words:** Azerbaijan Democratic Republic, Ministry of Justice, Trial Chamber of Azerbaijan